# ÇOX AZ TANIDIĞIMIZ RZAQULU VƏ NƏCƏFQULU NƏCƏFOVLAR



*Cəlal QASIMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

*(Əvvəli ötən sayımızda)*

Nəcəfqulu 1901-ci ildə Tiflisdə mühasibat kurslarında təhsilini davam etdirir. Kursu başa vurduqdan sonra o, Culfaya qayıdır və əmisinin yanında ticarət mühasibi kimi əmək fəaliyyətinə başlayır. 1907-ci ilin yanvarında Nəcəfqulu Nəcəfov jandarm idarəsi tərəfindən həbs olunur. Üç aydan sonra onu İrəvan Quberniyasından Vladiqafqaza sürgün edirlər.

Həmin ilin payızında onun Naxçıvana qayıtmasına icazə verilir. Təqib olunacağından qorxan Nəcəfqulu Naxçıvanı deyil, Tiflisi seçir. 1910-cu ildə Naxçıvana qayıdan Nəcəfqulu özəl idarələrdən birində mühasib işləyir.

1912-1915-ci illərdə İsfahanda kontor müdiri və anbardar vəzifəsində çalışır. Burada ona 8 ay həbs cəzası verilir. Həbsdən azad olandan sonra - 1916-cı ilin dekabrından 1920-ci ilədək Naxçıvanda müxtəlif kooperativlərdə mühasib işləyir. 1917-ci ildən Naxçıvandakı "Hümmət" təşkilatının katibi vəzifəsində olan Nəcəfov, 1920-ci ildən sonra bir sıra yüksək, məsul vəzifələrdə çalışır. 1922-ci il martın 8-dən 1923-cü ilin iyuluna kimi RSFSR-in Türkiyədəki səfirliyində tərcüməçi diplomat kimi fəaliyyətini davam etdirir.

Bu şəxsiyyətin taleyinin 30-cu illər dövrü barədə məlumat istintaq qovluğunda mühafizə olunduğundan indi həmin qovluğa müraciət edək.

Naxçıvan XDİK-in rəis müavini dövlət təhlükəsizlik baş leytenantı Vakulçik tərəfindən 10 sentyabr 1937-ci ildə Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu barədə də arayış tərtib edildi. Vakulçik göstərirdi ki, Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu - 1881-ci il təvəllüdlü, 1921-ci ildə Ü(b)KP-dan israfa görə xaric edilmiş, mühasib, Naxçıvan şəhər sakinidir. O, 1921-cı ildə 16000 rubl israfa görə partiya səralarından xaric edilmişdir.

1924-cü ildən başlayaraq sistemli şəkildə xarici dövlət nümayəndələri ilə əlaqə saxlamış, cəsus xarakterli fəaliyyət göstərmişdir.

Agentura məlumatlarına və özünün 30 sentyabr 1937-ci ildə verdiyi ifadəsinə görə ifşa olunmuşdur.

Onun həyat yoldaşının doğma qardaşı, çar və müsavat ordusunun keçmiş zabiti Tahirov Bağır İrandadır. Nəcəfqulu Nəcəfov və həyat yoldaşı Nazlı Nəcəfova onunla konsulluq və poçt vasitəsilə əlaqə saxlamışdır.

**Nəcəfqulu Nəcəfovun sorğu anketi**

1881 ci il təvəllüdlü

Naxçıvanda doğulmuş

Naxçıvan şəhər sakini

Peşəsi - mühasib

Atası Məmmədhüseyn Naxçıvanda ev kirayəsi ilə məşğul olub

Partiyalılığı: 1921-ci ilə qədər AK(b)P üzvü olmuş və israfa görə partiya sıralarından xaric edilmişdir.

Ailə tərkibi: Yoldaşı Nazlı 43 yaş, oğlu və bir qızı

13 Oktyabr 1937-ci il.

Onu da diqqətə çatdırmalıyıq ki, Nazlı Məmmədağa qızı Tahirovanin Sulan, Cəmilə, Səfiqə və Namiq adlı kiçik yaşlı övladı olmazın əziyyəti ilə üz-üzə qalmışlar. Məlumdur ki, Nəcəfqulunun həbsi ilə əlaqədar olaraq Nazlg Nəcəfovanı (Tahirovanı) da vətən xaininin arvadı kimi həbs edib Qazaxıstana sürgün etdilər. Uzun illər Qazaxıstanda sürgündə qalandan sonra, Azərbaycana qayıdan Nazlı xanımı Naxçıvana buraxmırlar. Məcburi surətdə Göyçayda yaşayır. Xeyli vaxtdan sonra onun Naxçıvana getməsinə icazə verilir. O, 1977-ci ildə Naxçıvan şəhərində vəfat edir.

Nəcəfqulu Nəcəfovun istintaq qovluğunda tərcümeyi-halı da var. Biz onun əhəmiyyətli bir sənəd olduğunu nəzərə alaraq onu burada oxuculara təqdim etməyi məqsədəuyğun hesab etdik.

**Nəcəfqulu Nəcəfov Məmmədhüseyn oğlunun yazdığı tərcümeyi-hal**



Mən 1881-ci ildə may ayında Naxçıvanda Arazda doğulmuşam. Atam əmlakı olan evi kirayə verirdi. 1893-cü ildə mən Naxçıvan Şəhər 3 sinifli peşə məktəbinə qəbul olmuşam. 1934-cü ilin mayında atam vəfat etdi və mən əmimin qəyyumluğu altında təhsilimi davam etdirdim.

1900-cu ildə mən könüllü olaraq Culfa Gömrüyündə mirzə kimi işə başladım və 8 ay fəaliyyət göstərdim. 1901-ci ilin sentyabr ayında mən Tiflisə praktiki mühasibat kurslarında oxumağa getdim. Sonra mən Naxçıvana qayıdıb əmimin yanında 1904-cü ilin aprelinə qədər hesab-ekspeditor işini apardım.

1904-cü il 8 apreldən 1905-ci il aprelə qədər mən Culfa -Təbriz şossesinin tikintisində təchizatçı Hacıyev Məmməd Hüseynin yanında hesab işini apardım. 1907-ci ilin yanvarına kimi qardaşımın yanında işlədim, 3 yanvar 1907-ci ildə İrəvan jandarm idarəsi ilə gizli əksinqilabi fəaliyyətimə görə həbs olundum. 3 aydan sonra İrəvan quberniyasından Vladiqafqaza sürgün edildim. Burada gizli fəaliyyətimə görə 2 dəfə həbs olunduqdan sonra Dərbəndə sürgün edildim. Dərbəndin əvəzinə Tiflisə gəldim və qanunsuz şəkildə bir dostumun yanında yaşadım. 1907-ci ilin noyabrın sonunda mən Naxçıvana gəlməyə icazə aldım. Naxçıvana qayıdan kimi mən Eləmdarda daha sonra Xoyda inqilabda iştirak etdim. Məmmədəli şahın devrilməsindən və çar ordusunun İrana gəlməsindən sonra mən polis tərəfindən izlənəcəyimdən qorxaraq Naxçıvana yox, Tiflisə gedib 1909-cu ilin Aprelinə qədər orada qaldım. Sonda axtarışın dayandırılmasından əmin olub Naxçıvana qayıtdım. 1910-cu ilin mayına qədər işsiz qaldım.

1910-12-ci illərdə fərqli şəxslərin yanında hesab işində işləmişəm. 1912-ci ilin dekabrında İranda anbar rəhbəri vəzifəsinə işə düzəldim. İran inqilabçılarına kömək etdiyim üçün israf çox olmuşdur. 1916-cı ildə cəzam bitincə mən qayıdıb Qurbanovun dəri istehsalı zavoduna mühasib vəzifəsinə işə götürüldüm. 1919-cu ildə daşnak hökumətinin gəlişindən sonra işdən uzaqlaşdırıldım. Daşnaklar qovulduqdan sonra 1919-20 ci illərdə Naxçıvanda maliyyə idarəsində baş mühasib vəzifəsində işlədim.

Mənim Hacı Mir Bağırov, Mir Heydərzadə ilə və müəllim Abdul Azim Rustamoviçlə Naxçıvandan tanışlığım var. Bakıda Yusif Rzayevlə və Qasım Camalbəyovla sıx əlaqəm var. Bakıda qohumlarım arasında Rzaqulu Nəcəfov- müvəqqəti olaraq rus dilində türk dilinə kitab tərcüməsi ilə məşğul olan əmim oğlum var. Tiflisdə Əşrəf Yüzbaşovla (o, Gürcüstan KP üzvüdür) və İsmayıl Camalbəyovla (o, Naxçıvanlıdır) tanışlığım var.

30 sentyabr 1937-ci ildə Naxçıvanda NKVD-nin məhbəsində N.Nəcəfovun dindirilməsi prosesi başlayır.

Sual: İstintaqa xarici ölkə nümayəndələri ilə əlaqələrinizdən danışın.

Cavab: Naxçıvan sakini olan və 1925-ci ildə güllələnən Bağırov Hacı Mehdi ilə mənim dostluq münasibətim var idi. 1904-cü ildə mən axşam onun evinə getdim. Orda mən İran konsulu vəzifəsinin icraçısı İsxiqevani Xudadat xanla tanış oldum. Sonra biz üçümüz çaxırla şam yeməyi yedik və çadranın çıxarılmasından danışdıq. Mən qadının azad olunmasından danışırdım. Bu söhbətlərdən sonra biz ayrıldıq. O gündən sonra mən Xudadat xanla mütəmadi görüşdüm, o, bizə gəlirdi, mən onun mənzilində olmuşam. Biz içib, müxtəlif mövzularda danışırdıq.

Sonuncu dəfə o, Naxçıvandan gedərkən görüşmüşəm. 1925-ci ildə Xalq Komissarı həbs olunarkən o, məndən onların həbs səbəbini və yeni təyin olunan xalq komissarının mədəni səviyyələrini, onların yaxşı işçi olub olmamalarını soruşdu. Mən ona xalq komissarının əsl həbs səbəblərini izah etdim və yeniləri barədə heç bir məlumatım olmadığını söylədim, çünki onlar Bakıdan gəlmişdilər. Xudat xanın gedişindən sonra onun vəzifəsi, yəni İranın Naxçıvandakı Konsulu vəzifəsi Maxodnasr Abbasxan təyin edildi. M. Abbasxan Naxçıvana gələr gəlməz öz katibi Alixan ilə mənim evimə gəldi. Mən onları dəvət etməmişdim, lakin qəbul edib, çay təklif etdim. O, dedi ki ona mənim barəmdə Xudatxan danışdı, daha sonra söhbət etdik, o, İrandakı mən isə SSR-dəki həyatdan danışdıq. Daha sonralar mən və yoldaşım onun evində olduq, o, bizə şam yeməyi və qəribə içkilər təqdim etdi.

Mən həmçinin Səfərəlibəyov Kərbəlai Ağa ilə uşaqlıqdan tanışam. O, 1933-cü ildən konsulluqda işləyib, bundan əvvəl isə müxtəlif sovet müəssisələrində işləmişdir. 1934-cü ildə mənim yanıma əmim oğlu Nəcəfov Rzaqulu gəldi. Mən Rzaqulu ilə Səfərəlibəyovun yanında nahar vaxtı olduq. Səfərəlibəyov öz ailə vəziyyətindən, Rzaqulu isə əsir düşərgələrindəki vəziyyətdən danışdı. 1935-ci ildə Səfərəlibəyov İranda işlə bağlı səfərdə olanda, İrandan mənim həyat yoldaşım Nəcəfova Nazlı xanıma, 1900-cü ildə İrana getmiş, bundan əvvəl çar ordusu və Qızıl Ordunun zabiti olmuş, qardaşı Tahir Bağırovdan məktub gəldi. Nazlı xanım Tahirə cavab yazdı və konsulluq vasitəsi ilə göndərilməsi üçün Səfərəlibəyova şəxsən çatdırdı. Səfərəlibəyov mənə bildirdi ki, məktub Tahirə göndərildi. Səfərəlibəyov mənə dedi ki, Tahir Bağırov Tehran yaxınlığında şosse yolunda işləyir. İmza N.Nəcəfov.

Müstəntiq Nəcəfqulu Nəcəfovu 12 oktyabr 1937-ci il dindirməsi zamanı İranda yaşayan qaynı ilə əlaqələrindən danışmağı, ona Səfərəlibəyov vasitəsi ilə göndərdiyi məktublar barədə danışmasını xahiş edir.

Nəcəfqulu Nəcəfovu bildirir ki, bəli, Səfərəlibəyov İran Konsulluğunun əməkdaşı olarkən, mən ona qohumum Tahir Bağırova çatdırmaq üçün məktub vermişəm. Həmçinin bundan öncə mən ondan Bağırovun məktubunu almaq üçün görüşdüm. Səfərəlibəyov mənə dedi ki, Tahir Bağırovla şəxsən görüşüb və o, Tehran yaxınlığında şosse yolunda işləyir.

Deyilənləri təsdiqləmək üçün baş leytenant Vakulçik elə həmin gün Nəcəfqulu Nəcəfovun həyat yoldaşı, 1893-cü il təvəllüdlü, Naxçıvan şəhər sakini, Naxçıvan şəhər beynəlxalq məktəbinin müəllimi Nazlı xanımı da şahid (bir müddət sonra Nazlı xanım da həbs edilir və şahiddən müttəhimə çevrilir - C.Q.) qismində dindirir.

Sual: - Xarici dövlət nümayəndələri ilə münasibətlərinizin xarakteri barədə məlumat verin.

Cavab: - Mən yoldaşımla birgə İran konsulluğunun əməkdaşları ilə - Xudatxan, Kərbəla Qafar ağa Safar Alibəyovla görüşmüşük. Safar Alibəyova mən şəxsən 1921-ci ildən İranda yaşayan qardaşım Tahirov Bağıra ünvanladığım məktubu çatdırmışam. Sonra Safar Alibəyovun vasitəsiylə qardaşımdan məktub almışam. Mənim qardaşım Tahirov Bağır çar ordusunun və Qızıl ordunun zabiti olmuş, sonra İranda əsir alınmış və ondan sonra orada qalmışdır. İmza: Nazlı Nəcəfova.

Bununla da istintaq başa çatır. Dindirmə protokollarına diqqət yetirsək görərik ki, müstəntiqlər qarşılarına qoyduqları məqsədə çox asanlıqla çatırlar. Onların hər üçü asanlıqla İranla əlaqələrindən danışır. Hətta Rzaqulu və Nəcəfqulu casuslq fəaliyyəti ilə məşqul olduqlarını da etiraf edir. Aşağıda da görəcəyik ki, əslində bunlar fiziki işkəncələr yolu ilə alınmış ifadələr idi.

* * *

Əməliyyat işçisi çavuş Babacanov 15 oktyabr 1937-ci ildə 2955 saylı cinayət işinə baxaraq aşağıdakı kimi təqsirləndirici qərar hazırlayır. Mən Az.SSR XDİK-in 5 nömrəli əməliyyat müfəttişliyinin əməliyyat işçisi çavuş Babacanov 2955 saylı cinayət işinə baxıb.

1) Nəcəfov Rzaqulu Ələkbər oğlu - 1885-ci il təvəllüdlü, SSSİ vətəndaşı, azərbaycanlı, Naxçıvan MSSR sakini, hazırda məşğuliyyəti olmayan, 1929-cu ildə UK(b)P-dan xaric edilmiş, 1931-ci ildə casusluqda təqsirli bilinərək 3 illik əsir düşərgəsinyə sürgün olunmuş, savadlı, evli

2) Nəcəfoov Nəcəfqulu Məmməd Hüseyn oğlu - 1881-ci il təvəllüdlü, SSRİ vətəndaşı azərbaycanlı, Naxçıvan şəhər sakini, UK(b)P-dan 1921-ci ildə xaric edilmiş, savadlı, evli, məhkum olunmamış.

Nəzərə alıram ki, Nəcəfov Rzaqulu və Nəcəfqulu milliyyətçi mövqedə və əksinqilabi fəaliyyətdə olub:

*(Davamı 10-cu səhifədə)*

# ÇOX AZ TANIDIĞIMIZ RZAQULU VƏ NƏCƏFQULU NƏCƏFOVLAR

*(Əvvəli 6-cı səhifədə)*

a) Nəcəfov Rzaqulu Ələkbər oğlu əsir düşərgəsindən qayıdan kimi Bakıda Din Tarixi müzeyinə düzəlmiş və orada xalq düşmənləri ilə sıx əlaqədə olmuşdur. O, 1937-ci ilin yanıvarında ifşa olundu və Naxçıvana getdi, evində əksinqilabi ədəbiyyat saxlayırdı.

Mütəmadi olaraq xarici ölkə konsulluqlarının nümayəndələri ilə, xüsusilə Qafar ağa Səfərəlibəyovla əlaqədə olub, sonuncu xarici kəşfiyyat üçün cəsus xarakterli məlumatların toplanması ilə məşğul olmuşdur.

b) Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu - 1924-cü ildən mütəmadi olaraq xarici kəşfiyyatla əlaqədə olmuş və onları cəsus xarakterli məlumatlarla təmin etmişdi.

Öz qayını ilə (keçmiş müsavat zabiti) həyat yoldaşının qardaşı, İranda olan Tahirov Bağırla İran konsulluğunun əməkdaşı vasitəsilə yazılı əlaqə saxlayıb. Müttəhimlərin günahı öz ifadələri ilə, eləcə də işdə olan şahid ifadələri ilə və materiallarla sübut olunmuşdur.

Sadalananları nəzərə alaraq, vətəndaş Nəcəfov Rzaqulu Ələkbər oğlunun və vətəndaş Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun günahı təsdiq olunsun, və vətəndaş Nəcəfov Rzaqulu Ələkbər oğlunun və vətəndaş Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun 2955 saylı cinayət işi Azərbaycan SSR Fövqəladə Üçlüyünə təqdim edilsin.

Az.SSR XDİK üçlüyü 21 oktyabr 1937-ci ildə 2955 saylı cinayət işinə baxaraq Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu, 1881-ci il təvəllüdlü və Nəcəfov Rzaqulu Ələkbər oğlu, 1885-ci il təvəllüdlü sürgündən qayıtdıqdan sonra cəsus Şeyx Kərimlə və İran Konsulluğunun əməkdaşı Kərbəlayı Qafar Ağa Səfərəlibəyovla casus xarakterli məlumatlar çatdırdırdırmaqda müqəssir bilinirlər. Fövqəladədə üçlük qərara alır ki, 27 sentyabr 1937-ci ildən həbsxanada olan N.Nəcəfqulu və R.Nəcəfov əmlakları müsadirə edilməklə güllələnsinlər.



Azərbaycan SSR XDİK-in fövqəladə üçlüyünün 21 oktyabr 1937-ci il tarixli qərarı ilə Nəcəfov Rzaqulu Ələkbər oğlu və Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu 29 noyabr 1937-ci ildə saat 2:50 də güllələndilər.

İ.V.Stalinin ölümündən sonra bir çox repressiya qurbanları kimi, Nəcəfovların da reablitasiya məsələsi gündəmə gəldi. 10 avqust 1956-cı ildə AZ.SSR Prokuror müavini Baş Ədliyyə Məsləhətçisi İsmayılov AZ.SSR ALİ MƏHKƏMƏSİNİN KOLLEQİYASINA ünvanladığı etirazda göstərilirdi. Az.SSR XDİK-in fövqəladə üçlüyünün 21 oktyabr 1937-ci il qərarı ilə Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu və Nəcəfov Rzaqulu Ələkbər oğlunun işi ilə əlaqədar güllələnmə hökmü yerinə yetirilmişdir.

İşə baxılarkən aşkar olundu ki, Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu və Nəcəfov Rzaqulu Ələkbər oğlunun əksinqilabi fəaliyyətləri Naxçıvan MSSR İran Konsulluğunun əməkdaşları olan Səfərəlibəyov, Xudatxan və Mxadcaranın evində qonaq olmalarından ibarət idi. Bundan əlavə, göstərilir ki, Nəcəfov Rzaqulu Ələkbər oğlu xalq düşməni Vəzirov Heydərlə sıx əlaqədə olub.

Nəcəfov Rzaqulu Ələkbər oğlu və Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu istintaqda bildirmişlər ki, həqiqətən onlar İran Konsulluğunun əməkdaşlarının evində qonaq olmuşlar, lakin bu, yalnız dostluq xarakteri daşımışdır.

İşin materialından görünür ki, N.M.Nəcəfov İranda olan qaynı Tahirov Bağır ilə yazılı əlaqəni İran Konsulluğu əməkdaşı vasitəsilə saxlamışdır, lakin, bunu həyat yoldaşı və özü gizlətməmiş təsdiq etmişdir. Hətta Nəcəfovun evində axtarış zamanı qayınına məktub tapılmışdır lakin, məktub işin materialları arasında yoxdur və məktubun məzmunu barəsində məlumat yoxdur. N.M.Nəcəfov və R.Ə.Nəcəfov cəsusluq fəaliyyətləri barəsində dəlil yoxdur, R.Nəcəfovun sıx əlaqədə olduğu "xalq düşməni" Heydər Vəzirov 17 dekabr 1955-ci ildə bəraət qazanmışdır.

Qeyd olunana əsaslanaraq

Xahiş edirəm

Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu, Nəcəfov Rzaqulu Ələkbər oğlu ilə bağlı Az.SSR XDİK-in xüsusi üçlüyünün 21 oktyabr 1937-ci il qərarına xitam verilsin.

Bu müraciətdən sonra, Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kolleqiyası 18 avqust 1956-cı il qərara alır ki, Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun və Nəcəfov Rzaqulu Ələkbər oğlunun işlərinə xitam verilsin.

25 noyabr 1955-ci ildə Nəcəfqulunun qızı Şəfiqə xanım atasının taleyi ilə maraqlanır, Naxçıvan DTK-nın işçiləri bildirir ki, sizin atanız 1941-ci ildə həbsxanada qan təzyiqindən vəfat edib. Yalnız müstəqillik əldə etdikdən sonra arxivlər xalqın ziyalı oğullarının üzünə açıldı təhriflərə məruz qalan tariximiz təshih olunmağa başladı. Bu yolun başlanğıcıdı. Hesab edirik ki, Azəqbaycanın nüfuzlu simalarının hamısının ömür yolu, onların millət qarşısındakı xidmətləri dərindən araşdırılacaq və hərə öz halal haqqını alacaqdır.

***2019***